**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ŞİMALİ QAFQAZDA AZADLIQ HƏRƏKATI VƏ AZƏRBAYCAN (1817-1864-CÜ İLLƏR)

| | |
|---|---|
| İxtisas: | 5502.01 – Ümumi tarix |
| Elm sahəsi: | Tarix |

İddiaçı: **Vüsal Qəzənfər oğlu İsgəndərov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə-2025**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Ümumi tarix" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Tarix üzrə elmlər doktoru, professor
**Şirxan Dadaş oğlu Səlimov**

**Rəsmi opponentlər:** AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor
**Musa Cəfər oğlu Qasımlı**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Elvira Məhəmməd qızı Lətifova**

tarix üzrə fəlsəfə doktoru
**İradə Xalid qızı Əliyeva**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix üzrə elmlər doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: tarix üzrə elmlər doktoru, dosent
**Aidə Rəhim qızı Bağırova**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XVI əsrdən etibarən Qafqaz Rusiyanın xarici siyasətinin, Türkiyə, İran və Krım xanlığı ilə geosiyasi rəqabətinin obyektinə çevrilib. İki əsr ərzində Qafqazdakı rus hərbi-siyasi mövcudluğu Terek çayının sahilində, onun başlanğıcından çox da uzaqda yerləşməyən kiçik bir qala olan Terek şəhərciyi ilə məhdudlaşmışdı. XIX əsrin əvvəllərində Rusiyanın Qafqaza hərbi müdaxiləsi və bu bölgənin işğal edilməsi qədim zamanlardan bu ərazilərdə yaşayan çoxsaylı xalqların əsarət altına alınması ilə nəticələnir. Bu, Qafqazda çarizmə qarşı azadlıq hərəkatının başlanmasına səbəb oldu. Tərəflər arasındakı gərgin münasibətlər və fəal hərbi əməliyyatlar dövrü Qafqaz müharibəsi adlanır. Qafqaz müharibəsi Rusiya dövlətinin tarixində ən uzunmüddətli hərbi münaqişə hesab olunur. "Qafqaz müharibəsi" anlayışının özü o qədər genişdir ki, bu da onun dörd və yaxud bir əsr yarımlıq tarixi haqqında ziddiyyətli açıqlamalar verməyə imkan verir. Əsasən isə Qafqaz müharibələrinin xronoloji çərçivəsi kimi 1817-1864-cü illər götürülür.

Qafqaz müharibəsi şərti olaraq üç dövrə bölünür: 1817-1829-cu illəri əhatə edən birinci mərhələdə Rusiyanın bu bölgədə fəallaşması baş verir, imperiya qaydalarının tətbiq olunması məqsədi ilə yerli əhalinin üzərinə olan təzyiqlər güclənməyə başlayır; 1830-1856-cı illəri əhatə etmiş ikinci mərhələdə Rusiya qoşunlarına qarşı mübarizə məqsədilə Dağıstan və Çeçenistanın dağlı xalqlarının müridizm bayrağı altında birləşməsi baş verir: 1856-1864-cü illəri əhatə etmiş üçüncü mərhələ hərbi qarşıdurmanın yekun mərhələsi hesab olunur.

Çarizmə qarşı müqavimət hərəkatının böyük hissəsi müridizm bayrağı altında getmişdir ki, Qafqaz müridizminin Şimali Azərbaycanda yaranmaqla oradan da Şimali Qafqaza keçməsi faktı vətənimizin bu hərəkatda yaxından iştirak etməsinin göstəricilərindən biridir. Həmçinin bəhs olunan dövrdə müridizmin təsiri ilə Azərbaycanın şimal qəzalarında üsyanlar baş vermiş, bu zaman dağlı mürid dəstələri azərbaycanlı üsyançıların yardımına gəlmişdilər. Eləcə də çoxsaylı azərbaycanlı mühacirlər dağlıların müridizm

hərəkatında yaxından iştirak etməklə, onların içərisində Azərbaycanın şimal-qərb bölgəsindən, Car-Balakən camaatlığı və İlisu sultanlığından ilisululu Daniyal bəy və balakənli Bakrak Əli kimi naiblər imamın ən yaxın silahdaşlarından olmuşdur. Bu baxımdan Azərbaycan tarixinin müxtəlif səbəblərdən günümüzə kimi diqqətdən kənarda qalan səhifələrinin araşdırılması vacibdir və Vətən tarixinin ayrı-ayrı dövr və hadisələrinin yeni elmi yanaşmalar və konsepsiyalar əsasında tədqiqinə böyük zərurət var. Bu baxımından Şimal Qafqaz xalqlarının azadlıq hərəkatı və Azərbaycan problеminin araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan və dağlı xalqların münasibətləri çoxəsrlik zəngin tarixə söykənir. Xalqlarımızın tarixində XIX əsrin 20-60-cı illəri olduqca maraqlı hadisələrlə zəngin və çarizmə qarşı şanlı mübarizə dövrüdür. Bu zaman kəsiyində Azərbaycan və dağlı xalqların qarşılıqlı münasibətlər probleminin kompleks tədqiqi tarixşünaslığımızda bu mövzu ilə bağlı mövcud boşluğu doldurmaq baxımından da xüsusi elmi-siyasi əhəmiyyət kəsb edir.

XIX əsrdə müstəmləkəçilərə qarşı apardığı müharibədə yazdığı şanlı tarixdən iki əsrə yaxın bir müddət keçdikdən sonra Azərbaycan xalqı XXI əsrin əvvəllərində dünya hərb tarixinə yeni səhifə yazdı. Azərbaycanın 44 günlük müharibədə həm hərbi-siyasi, həm də mənəvi-psixoloji baxımdan qazandığı şanlı zəfər bizim gözümüzün qarşısında cərəyan etdi. Öz liderinin, müzəffər Ali Baş komandanın, prezident İlham Əliyevin ətrafında birləşən Azərbaycan xalqı, ordunun yüksək əhval-ruhiyyəsi, qələbəyə sonsuz inam hissi ilə birləşərək otuz ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarımızı mənfur düşməndən azad etdi. Mahiyyət etibarı ilə bu, xalqın kütləvi qəhrəmanlığı idi. Bugünkü qələbəmizin tarixi köklərinin müəyyən olunması baxımından da hərb tariximizin, müqavimət hərəkatımızın ayrı-ayrı səhifələrinin dərindən öyrənilməsi və xalqa çatdırılması son dərəcə vacibdir ki, bu, mühüm elmi-siyasi və təbliğati əhəmiyyət kəsb edən problemin araşdırılmasının aktual edən daha bir məqamdır.

Qeyd etmək lazımdır ki, hərbi və etnik qarşıdurmalar yaratmaq cəhdlərinin davam etdiyi bir vaxtda tədqiq olunan problem həm də bütövlükdə Qafqaz tarixi üçün əhəmiyyət kəsb edir. Məhz

bu, Şimali Qafqaz xalqlarının azadlıq hərəkatı və Azərbaycan problemini aktual edən daha bir məqamdır. Bu bölgənin obyektiv tarixinin araşdırılması bizim şanlı tariximizi kobud şəkildə təhrif etməyə cəhd edənlərə, eləcə də Qafqazda əsrlərə dayanan türk-müsəlman dostluğuna kölgə salmağa çalışanlara tutarlı cavabdır. Bu baxımından da dissertasiya işi mühüm praktik əhəmiyyət daşıyır.

Problemin öyrənilmə səviyyəsindən bəhs edərkən qeyd etmək lazımdır ki, problem bu səpkidə müstəqil tədqiqat obyekti kimi ilk dəfə tərəfimizdən seçilmiş, kompleks şəkildə araşdırılmışdır. Eyni zamanda xüsusi olaraq vurğulanmalıdır ki, bu problemə dair ilk əsərlər hələ Qafqaz müharibəsinin davam etdiyi vaxtda meydana gəlmiş və həmin hadisələrin iştirakçıları tərəfindən qələmə alınmış bu əsərlər mənbə əhəmiyyəti kəsb edir. Bu əsərlərin tənqidi münasibət kəsb edən cəhətləri ilə yanaşı, müəlliflərin ixtiyarında həmin vaxt üçün mövcud rəsmi sənədlərin – çar ordusunun Qafqazdakı hərbi rəhbərliyinin sənədləri, məruzələri, əmrləri, habelə hadisələrin şahidi olan rus zabitlərinin qeydləri və gündəliklərinin olması səbəbindən kifayət qədər geniş faktoloji bazaya malikdirlər ki, bu da onların ən mühüm məziyyətlərindən biridir. Rus hərb tarixçilərinin əsərlərində bizim tədqiqat obyektimizə daxil olan problem, XVIII əsrin sonları-XIX əsrin birinci yarısında Qafqazda cərəyan edən siyasi proseslər, Qafqazın Rusiya tərəfindən işğalının gedişi, bu işğala qarşı gedən müqavimət, xüsusilə də müridizm hərəkatı ilə bağlı qiymətli məlumatlar vardır.

XIX əsr rus müəlliflərindən ilk növbədə N.F. Dubrovin[1], V.A. Potto[2], R.A. Fadeyev[3], A.L. Zisserman[4], N.A. Volkonskiy[5], A.L.

---

[1] Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. Том VI. СПб.: Тип. И.Н. Скороходова, 1888, 756 с.

[2]Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. Том 2-й. Ермоловское время. СПб.: Тип. Е. Евдокимова, 1887, 780 с.; Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. Том 5-й, вып. 1-й. Время Паскевича. Тифлис: Типография Окружного Штаба Кавказского военного округа, 1889, 335 с.

[3]Фадеев Р.А. Государственный порядок. Россия и Кавказ / Сост. Лебедев С. В., Линицкая Т. В. /Предисл. и коммент. Лебедева С. В. / Отв. ред. О. А. Платонов. — М.: Институт русской цивилизации, 2010. — 992 с.; Шестьдесят

Qizetti[6], D.İ. Romanovskiy[7], İ.N. Berezin[8], A.İppolitov[9], M.P. Poqodin[10] və başqalarının əsərlərini xüsusi qeyd etmək lazımdır.

Araşdırdığımız problemə dair Oktyabr çevrilişinə qədərki Rusiya tarixşünaslığı üçün xarakterik cəhət, həmin dövr müəlliflərinin Rusiya böyük dövlətçilik ruhunda yazılmış əsərlərində Qafqazın işğalına və yerli əhalinin azadlıq hərəkatına qeyri-obyektiv münasibətdir. Onlar Rusiyanın Qafqazdakı işğalçılıq niyyətlərinə haqq qazandırır, bəziləri isə bunu xilaskarlıq missiyası kimi qələmə verərək qeyd edirlər ki, çarizm "xristian gürcüləri dağlıların yürüşlərindən qorumaq" məqsədilə Qafqaza gəlmişdi. İmperiya tarixşünaslığında Qafqazın müqavimət hərəkatına rəhbərlik edən ruhani xadimlər, müridizm şeyxləri ilk növbədə təriqətçi kimi təqdim edilir, muridizm Qafqaz xalqlarının İslam fanatizmi kimi təqdim olunurdu. Lakin bu əsərlərin yazılması zamanı həmin vaxt üçün mövcud çoxsaylı qaynaqlardan istifadə olunmuşdur ki, bu da onların dəyərini artırır.

---

лет Кавказской войны / Р.А.Фадеев. – Тифлис: Типография Главного штаба Кавказской Армии, – 1860. – 147 с.

[4]Зиссерман А.*Л.* Осада Бурной и Дербента Кази-Муллой *в* 1831 *году. //* Русский Вестник, 1864, №*12,* с. 698-732

[5]Волконский Н.А. Война на Восточном Кавказе с 1824 по 1834 год в связи с мюридизмом // КС. Тифлис, 1887. - Т.11; Война на Восточном Кавказе с 1824 по 1834 гг. в связи с мюридизмом. // Кавказский сборник, т. XII, Тифлис, типография окружного штаба, 1888, с. 1-216

[6]Гизетти А.Л. Сборник сведений о потерях Кавказских войск во время войн Кавказско- горской, персидских, турецких и в Закаспийском крае, 1801-1885 гг. Тифлис: Издательство военно-исторического отдела при штабе Кавказского военного округа, 1901, 222 с.

[7]Романовский Д.И. Кавказ и Кавказская война. Публичные лекции, читанные в зале Пассажа генерал штаба полковником Романовским Д.И. СПб., Общественная польза, 1860. 460 стр.

[8]Березин И.Н. Путешествие по Дагестану и Закавказью. Казань, Университетская типография, 1850.

[9]Ипполитов А. Учение «Зикр» и его последователи в Чечне и Аргунском округе. ССКГ, вып 2. С. 1-17. Тифлис, 1869

[10]Погодин М.П. Алексей Петрович Ермолов. Материалы для его биографии. Русский вестник. Москва, Университетская типография, 1863, том 48, стр. 261-365; 537-587.

Qafqaz müharibəsinin sovet tarixşünaslığında tədqiqini 20-ci illərdən 40-cı illərin ortalarına qədər, 40-cı illərin sonundan 50-ci illərin ortalarına qədər və 50-ci illərin ortalarından 80-ci illərin sonuna qədər olmaqla bir neçə mərhələyə ayırmaq olar. Bu dövr tarixşünaslığında Şamilin özü və müridizm hərəkatı bəzən diametral zidd mövqelərdən dəyərləndirilirdi. Bu mərhələlərdə S.K.Buşuyev, N.A.Smirnov, H.Hüseynov, R.M. Maqomedov, X.X. Ramazanov kimi bir sıra tədqiqatçıların əsərlərində dağlılar hərəkatı mütərəqqi, xalq-azadlıq hərəkatı, Şamil isə böyük demokrat, xalqların azadlığı uğrunda mübariz kimi dəyərləndirilir, digərlərinin əsərlərində isə (Ш.В.Цагарейшвили və s.) bu hərəkat mürtəce, irticaçı kimi göstərilmişdir.

Sovet dövr tarixşünaslığında, XX əsrin 40-cı illərinin sonu - 50-ci illərin ortaları dövrü istisna olmaqla, həmin əsərlərdə çarizm işğalçı elan olunur, yerli əhalinin müqaviməti isə milli azadlıq hərəkatı adlandırılır. Belə ki, 1956-cı ilin noyabrında Moskvada Elmlər Akademiyasının Tarix İnstitutunda XIX əsrin birinci yarısında Şimali Qafqaz dağlılarının hərəkatının xarakteri ilə bağlı tarixçilərin müşavirəsi keçirildi. Bu görüşdə sovet tarixçiləri 1950-ci illərin əvvəllərində geniş vüsət almış Qafqaz dağlılarının hərəkatının yalnız xarici agentlərin fəaliyyəti nəticəsində baş verdiyi şərhini rədd etdilər[11].

Tədqiq olunan problemin sovet dövrü tarixşünaslığından bəhs edərkən A.S.Sumbatzadə[12], Y.Y.Ələsgərov[13], E.S.Məmmədov[14], N.İ.Pokrovski[15], N.A.Smirnov[16], İ.P. Petruşevskiy[17], S.K.Buşuyev[18],

---

[11]Лапинский Т. Горцы Кавказа и их освободительная борьба против русских.- Нальчик: Изд. Центр "Эль-фа", 1995.-456 с.

[12]Сумбатзаде А.С. Кубинское восстание 1837 года. Б., Издательство Академии наук Азербайджанской ССР, 1961, 121 с.

[13]Алескеров Ю.Ю. Очерк социально-экономических отношений в Закатальском округе в XIX веке (до 1870 года) автореферат диссерт. на соиск. канд. ист. Наук. Москва, 1953, с. 12

[14]Мамедов Э.С. Царизм и высшее мусульманское сословие Закавказья (проблема сословно-земельных отношений в начале XIX в. – 1917 г.), автореф. Канд. Дис. Б. 1987, 35 с

[15]Покровский Н.И. Кавказские войны и имамат Шамиля. Москва: Российская политическая энциклопедия, 2000. 511 с.

R.M.Maqomedov[19], V.Q.Hacıyev[20], H.Ə.Daniyalov[21], X.X.Ramazanov[22], Q.Q. Osmanov[23] və digərlərinin əsərlərini qeyd etmək lazımdır.

Problemin sovet dövründə öyrənilmə səviyyəsindən bəhs edərkən Azərbaycanda humanitar sahənin ağsaqqallarından sayılan filosof H.Hüseynovun adını qeyd etməmək olmaz. Onun XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixinin tədqiqinə həsr olunmuş əsərində[24] həmin vaxtı Şimali Qafqaz dağlılarının azadlıq hərəkatı və Şamilin şəxsiyyəti ilə bağlı Moskva ideoloqlarının əsaslandıqları müridizmin mürtəce hərəkat, Şeyx Şamilin isə "ingilis və türk casusu" kimi qələmə verən şablonundan fərqli olaraq bu hərəkat xalq-azadlıq hərəkatı adlandırılır.

Müasir dövr tarixşünaslığından bəhs edərkən ilk olaraq Azərbaycanla Şimali Qafqaz xalqları arasındakı əlaqələr probleminin

---

[16]Смирнов Н.А. Мюридизм на Кавказе. М.: Издательство Академии Наук СССР, 1963, 242 с.

[17]Петрушевский И.П. Джаро-Белоканские вольные обшества в первой половине XIX в. Махачкала, 1993, 166 с.

[18]Бушуев С. К. Борьба горцев за независимость под руководством Шамиля. Москва-Ленинград, Издание АН СССР, 1939, 183 с.

[19]Магомедов Р.М. Борьба горцев за независимость под руководством Шамиля. Махачкала, типография МСХ, 1991. 134 с.; Магомедов Р.М. Даргинцы в дагестанском историческом процессе. Махачкала, 1999. Т. II. 504 с.

[20]Гаджиев В.Г. Новый источник по истории Дагестана. // Из истории дореволюционного Дагестана (сб. научных трудов), Махачкала, изд- во Даг. филиал АН СССР, 1976, 219 с.

[21]Даниялов Г.А. Имамы Дагестана. По долинам и скалам Дагестана. Махачкала, 1996. 246 с.

[22]Рамазанов Х.Х. Колониальная политика царизма в Дагестане в первой половин 19-го века. Махачкала, типография министерства культуры ДАССР, 1956. 41 стр.

[23]Османов Г.Г. О социальном строе Дагестана в конце XVIII — начале XIX вв. с. 133-167. Ученные записки. Институт Истории, Языка и Литературы им. Г.Цадасы. т. 7, Махачкала, 1959.

[24]Hüseynov, H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən / H. Hüseynov. – Bakı: Şərq-qərb, – 2007. – 400 s.

tədqiqatçısı S.İ. Əliyevanın əsərlərini[25] qeyd etmək lazımdır. Onun əsərləri tarixi çox qədim dövrlərə gedib çıxan xalqlarımızın müxtəlif sahələri əhatə edən qarşılıqlı münasibətlərin araşdırılmasına həsr olunur. Müəllifin əsasən hərbi-siyasi sahədəki əlaqələrimizin tədqiqinə həsr olunmuş əsərlərində birgə mübarizə tarixi, müridizmin bayrağı altında getmiş mübarizə məsələlərinə aydınlıq gətirilir.

Çağdaş Vətən tarixşünaslığında bu problemin bir sıra aspektləri R.M.Qurbanovun XIX əsrin birinci yarısında Şimali Azərbaycanda azadlıq hərəkatının araşdırılmasına həsr olunmuş əsərində[26] öz əksini tapmışdır.

Dissertasiyanın yazılması zamanı R.Y.Niftəliyevin XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda rus çarizminin müstəmləkəçilik siyasəti və ona qarşı mübarizə probleminin tədqiqinə həsr olunmuş əsərindən[27] də geniş şəkildə istifadə olunmuşdur.

Vətən tarixşünaslığında bu problemin bir sıra aspektlərinə toxunmuş əsərlərdən biri də V.U.Umudlunun Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə probleminin tədqiqinə həsr olunmuş monoqrafiyasıdır[28].

Çarizmin Cənubi Qafqazda həyata keçirdiyi dini siyasəti, zorakı xristianlaşdırma tədbirləri müsəlman əhalinin dini hisslərinə toxunmaqla bu, tədqiq olunan dövrdə baş verən müqavimət hərəkatının başlıca səbəblərindən biri idi. İ.H.Əliyevanın monoqrafiyasında[29] Azərbaycanın şimal-qərb bölgəsində yerli əhaliyə, ilk növbədə ingiloylara qarşı həyata keçirilmiş zorakı xristianlaşdırma tədbirləri araşdırılır. Bu əsərdə 1863-cü ildə Hacı

---

[25]Алиева С.И. Взаимоотношения Азербайджана и народов Северного Кавказа (XIX-начало XX вв.). Баку, ИПО Турхан, 2015. 456с.;Алиева С.И. Участие народов Азербайджана и Северного Кавказа в Кавказской войне. С. 27-37.

[26]Qurbanov, R. XIX əsrin birinci yarısında Şimali Azərbaycanda azadlıq hərəkatı / R. Qurbanov. – Bakı: Nurlan, – 2006. – 192 s.

[27]Niftəliyev, R. XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı / R. Niftəliyev. – Bakı: ADPU nəşriyyatı, – 2006. – 138 s.

[28]Umudlu, V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828-ci illər) / V. Umudlu. – Bakı: Elm, – 2004. – 180 s.

[29]Əliyeva, İ. İngiloylar: zorakı xristianlaşdırmaya və gürcüləşdirməyə qarşı mübarizə tarixindən / İ. Əliyeva. – Bakı: – 2019. – 372 s.

Murtuzun başçılığı altında baş vermiş Zaqatala üsyanının tərkib hissəsi kimi Əliabad üsyanı ilə bağlı maraqlı faktlar yer alıb.

Ə.F.Məmmədovun "Göynük hərəkatı" əsərində[30] Azərbaycanın şimal-qərb bölgəsində getmiş müqavimət hərəkatı problemi araşdırılır. Bu əsərdə 1863-cü il ümumqafqaz üsyanı və həmin vaxtı Azərbaycanın şimal qəzalarında fəaliyyət göstərmiş müridizm şeyxləri və XIX əsrin 60-ci illərin əvvəllərindən etibarən Qafqazda yayılmağa başlamış zikr təlimi barədə maraqlı məlumatlar verilir. Bu əsərin ən mühüm məziyyətlərindən biri onun Azərbaycan, Gürcüstan və Rusiya arxivlərindən əldə olunmuş arxiv sənədləri əsasında yazılmasıdır.

Tədqiqat zamanı yeddicildlik "Azərbaycan tarixi"nin dördüncü cildindən[31] istifadə olunmuşdur. Azərbaycan tarixi və onun ayrı-ayrı hissələrinin tarixinə dair ümumiləşdirilmiş əsərlərdə bizi maraqlandıran dövrün yerli reallıqlarının ən müxtəlif aspektləri nəzərdən keçirilir ki, bu da diyarda həyata keçirilən Rusiya siyasətinin vahid mənzərəsini yaratmağa imkan verir.

Türkiyə tarixşünaslığında da tədqiqat obyekti kimi seçdiyimiz problemin ayrı-ayrı tərəflərinin araşdırılmasına həsr olunmuş əsərlər var. Əsasən vaxtilə Qafqazdan köçmüş mühacirlərin sıralarından çıxan həmin müəlliflərin əsərlərində Qafqazda getmiş azadlıq hərəkatı ilə yanaşı, daha çox Qafqazdan Osmanlı dövlətinə olmuş köçlər məsələsi tədqiq olunub. Onlardan Ferhat Berber[32], Bedri Habiçoğlunun[33] və digərlərinin əsərlərində XIX əsrin 50-ci illərindən etibarən Qafqazın müxtəlif bölgələrindən Osmanlı dövlətinin ərazisinə olmuş köçlər məsələsi və onların mühacirlik həyatından bəhs olunur.

Bu problemlə bağlı çağdaş dövr Rusiya tarixşünaslığından bəhs edərkən ilk növbədə Dağıstan tarixçilərinin əsərləri xüsusi

---

[30]Məmmədov, Ə. Göynük hərəkatı. (1805-1930-cu illər) / Ə. Məmmədov. – Bakı: Azərbaycan tarixçiləri birliyi, – 2016. – 524 s.

[31]Azərbaycan tarixi: [7 cilddə] / Məs. red. M. İsmayılov. – Bakı: Elm, – IV cild. (XIX əsr). – 2007. – 545 s.

[32] Ferhat Berber. 19. Yüzyılda Kafkasya'dan Anadolu'ya yapılan göçler. Karadeniz Araştırmaları. Güz 2011. Sayı 31. 17-49.

[33] Habiçoğlu, Bedri, 1993, Kafkasya'dan Anadolu'ya Göçler ve İskanlar, Nart Yay., İstanbul, ss. 63–68.

olaraq qeyd olunmalıdır. Y.U. Dadayev[34], T.Q. Qazıməhəmmədov[35], Ş.A. Qafurov[36], N.N. Harunova[37], M.M. İdrisov[38] və digərlərinin əsərlərindən İmam Şamil və onun silahdaşlarının yaratdığı nadir və çoxmillətli İmamət dövlətində sosial-iqtisadi vəziyyət, siyasi-hüquqi və hərbi-inzibati idarəetmə sistemi məsələləri araşdırılır.

Mövcud elmi ədəbiyyatın icmalı belə bir qənaətə gəlməyə əsas verir ki, Şimali Qafqaz dağlılarının azadlıq hərəkatı, müridizm ideologiyasının tədqiqinə dair kifayət qədər tədqiqatların olmasına baxmayaraq bu hərəkatda Azərbaycanın və azərbaycanlıların yeri və rolu tarixini kompleks tədqiq edən əsər yoxdur. Bu baxımdan təqdim olunmuş dissertasiya bu boşluğu aradan qaldırmaq məqsədini güdür və qafqazşünaslıqda yeni fikir olmaqla burada baş verən hadisələrə daha obyektiv nəzər salmağa imkan verir.

Problemin araşdırılması zamanı mövzuya dair çoxsaylı tarixi ədəbiyyatla yanaşı, çeşidli mənbə materiallarından əldə edilmiş məlumatların təhlili bizə azərbaycanlıların müridizm hərəkatındakı rolu, bu hərəkatın təsiri ilə Şimali Azərbaycanda baş verən üsyanlarda müridizm tərəfdarlarının iştirakı kimi məsələlərə aydınlıq gətirmək və problemi daha dolğun şəkildə tədqiq etmək imkanı vermişdir.

Problemin öyrənilməsində yerli mənbələr böyük əhəmiyyət kəsb edir. İlk növbədə imam Şamilin katibi Məhəmməd-Tahir əl-

---

[34]Дадаев Ю.У. Государство Шамиля. Социально-экономическое положение, политико-правовая и военно-административная система управления. - Махачкала, 2006. 505 с

[35]Газимагомедов Т.Г. Движение горцев под руководством имама Шамиля в годы Крымской войны (1853–1856 гг.). Международный научный журнал «Молодой учёный», № 22 (312). Май 2020 г. Стр. 194-196.

[36]Гапуров Ш.А. Особенности развития Российско-чеченских отношений в XVIII веке. с. 97-108. Актуальные проблемы истории народов Северного Кавказа. Сборник материалов Всероссийской научной конференции с международным участием г. Грозный, 19 октября 2019 г. Махачкала, 2019.

[37]Гарунова Н.Н. Роль русских городов-крепостей в политике России на Северо-Восточном Кавказе (XVIII–XIX вв.).

[38]Идрисов М.М. Влияние движения горцев Дагестана и Чечни в 20-50-х годах XIX века и развитие антиколониальной и антифеодальной борьбы на Кавказе. Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Махачкала, 1993. 27 с.

Karaxinin birinci imam Qazi-Məhəmmədin imamlıq dövründən 1859-cu ildə Şamilin təslim olmasına qədərki dövrü əhatə edən "Şamil dövründə Dağıstan müharibələrinin salnaməsi" əsərini[39] qeyd etmək lazımdır. Bu əsər müridizmin siyasi tarixinə dair ən qiymətli mənbələrdən biri hesab olunur. Onun əsərindən biz müridlərin 1830, 1853 və 1854-cü illərdə Azərbaycanın şimal-qərb bölgəsinə, Car-Balakən camaatlığının ərazisinə olmuş yürüşləri barədə maraqlı məlumatlar əldə edirik.

Problemlə bağlı yerli qaynaqlardan biri də imam Şamilin yeznəsi Abdurəhman al-Qumukinin "Xatirələr kitabı"dır[40]. Bu əsərdə xüsusilə müxtəlif yerlərdən köçüb gələrək İmamətin ərazisində yerləşmiş mühacirlər haqqında verilən məlumatlar böyük maraq doğurur. Müəllif belə yerlərin sırasında Şimali Azərbaycanın Car-Balakən, Şəki, Şirvan kimi kimi bölgələrinin də adlarını çəkir.

Nəşr olunmuş mənbələrdən də tədqiqat zamanı geniş şəkildə istifadə olunmuşdur ki, onlardan ən əhəmiyyətlisi "Qafqaz Arxeoqrafiya Komissiyası tərəfindən toplanmış aktlar" toplusunun sənəd və materiallarıdır. Aktlarda Qafqazda baş verən siyasi hadisələrlə bağlı yuxarı orqanlara göndərilmiş məruzələr, hesabatlar, icmallar öz əksini tapmışdır. Dağlılar hərəkatının ən görkəmli lideri Şamilin müridizmlə bağlı fikirləri ilə məhz orada tanış ola bilərik. Doqquzuncu cilddə E.A.Qolovin tərəfindən tərtib edilmiş "1838-ci ilin əvvəlindən 1842-ci ilin sonuna kimi Qafqazda hərbi işlərin vəziyyəti haqqında oçerk", aktların 12-ci cildində əksini tapmış Baryatinskinin "Qafqazın idarə edilməsinə dair məruzələri" və A.İ. Runovskinin "Gündəliyi" də Qafqaz xalqlarının azadlıq hərəkatı və müridizm problemi ilə bağlı ən qiymətli mənbələrdəndir.

Problemin araşdırılması zamanı Azərbaycan Respublikası Mərkəzi Tarix Arxivinin sənədlərindən də geniş şəkildə istifadə olunmuşdur. Arxivin 288 (Zaqafqaziya şeyxülislamının dəftərxanası) və 45 (Bakı qubernatorunun dəftərxanası) saylı fondlarından XIX

---

[39]Мухаммед Тахир ал-Карахи. Блеск Дагестанских сабель в некоторых Шамилевских битвах. Часть 1-я, Махачкала, 1990. 447 стр.

[40]Абдурахман из Казикумуха. Книга воспоминаний / Перевод с арабского М.С. Саидова. – Махачкала, Дагестанское книжное издательство, 1997. – 239 стр.

əsrin 50-60-cı illərində Şimali Azərbaycanın Nuxa, Şamaxı, Quba qəzalarında və Zaqatala dairəsində müridizmin yayılması, burada fəaliyyət göstərmiş müridizm şeyxləri barədə maraqlı məlumatlar əldə olunaraq tədqiqata daxil edilmişdir.

Tədqiq olunan mövzunun araşdırılması zamanı Gürcüstan Mərkəzi Tarix Arxivində saxlanılan problemlə bağlı sənədlər də mühüm mənbə kimi tədqiqata cəlb olunmuşdur. Bu arxivin 2 (Zaqafqaziya diyarı baş idarə rəisinin dəftərxanası), 3 (Zaqafqaziya diyar mülki idarəçiliyi rəisinin dəftərxanası), 4 (Qafqaz canişininin dəftərxanası), 5 (Qafqazda mülki işlər üzrə baş idarəçiliyin baş idarə rəisinin dəftərxanası), 16 (Qafqazda mülki hissənin rəisi, Tiflis hərbi qubernatorunun dəftərxanası) və 416 (Qafqaz arxeoqrafik komissiyası) saylı fondlarından Azərbaycanın şimal qəzalarında, Car-Balakən camaatlığı, Quba və Nuxa qəzalarında baş vermiş üsyanlar, bu üsyanların müridizm hərəkatı ilə bağlılığı problemlərinə işıq salacaq zəngin faktiki material əldə olunmuşdur.

Dissertasiya mövzusu üzərində tədqiqat apararkən bu problemlə bağlı məlumat verən qaynaq və tarixi ədəbiyyatdan, arxiv sənədlərindən informasiya əldə etməklə yanaşı, onlar ciddi şəkildə araşdırılmış, təhlil edilmiş, sənədlərin obyektiv gerçəkliyi nə dərəcədə əks etdirdiyi digər mənbələrdəki məlumatlarla müqayisə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Şimali Qafqaz xalqlarının azadlıq hərəkatıdır.

Tədqiqatın predmeti bu hərəkatı şərtləndirən Rusiyanın Qafqaz siyasəti, ona təsir edən amillər, Qafqazda azadlıq hərəkatının xüsusiyyətləri və s. kimi səbəblərdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi Qafqaz müharibəsinin alovlanmasına səbəb olan Rusiyanın Qafqaz siyasətini işıqlandırmaq və təhlil etməkdir.

Bu məqsədə uyğun olaraq tədqiqat işinin qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- Qafqazın Rusiya dövləti üçün hansı əhəmiyyətə malik olduğunu müəyyən etmək;
- Qafqazın Rusiya tərəfindən işğalına yeni baxışdan yanaşmaq;

- Çar hökumətinin Qafqazı ram etmək məqsədi daşıyan hərbi-strateji planlarını aşkara çıxarmaq və onun həyata keçirilməsinin gedişatını göstərmək;
- Çar Rusiyasının Qafqazdakı siyasətinin müstəmləkəçi mahiyyətini açıqlamaq;
- Qafqazda gedən anti-müstəmləkə hərəkatlarının səbəblərini və xüsusiyyətlərini müəyyən etmək;
- Şimal-Şərqi Qafqazın xalq-azadlıq hərəkatı tarixində ayrı-ayrı şəxslərin rolunu göstərmək;
- Şimali Azərbaycanda getmiş xalq-azadlıq hərəkatında nəqşibəndi təriqətinin rolunu işıqlandırmaq;
- XIX əsrin 20-60-cı illərində Şimali Azərbaycanda getmiş azadlıq mübarizəsini müridizm hərəkatı kontekstində təhlil etmək;
- Bəhs olunan dövrdə Rusiya imperiyasının işğalçılıq siyasətinə qarşı Azərbaycan və dağlı xalqlarının birgə mübarizəsini işıqlandırmaq.
- Şimali Qafqazda müridizmin bayrağı altında getmiş azadlıq hərəkatının Azərbaycana təsiri problemini təhlil etmək;
- Müridizm hərəkatında və ona qarşı aparılan mübarizədə Azərbaycanın rolunu müəyyənləşdirmək;
- Azərbaycanın şimal qəzalarını əhatə etmiş 1863-cü il ümumqafqaz üsyanının dini xarakterini, onun müridizm təlimi ilə bağlılığını üzə çıxarmaq.

**Tədqiqatın metodları.** Dissertasiyanın tədqiqi zamanı araşdırılan dövrdə Qafqazda baş vermiş tarixi prosesləri daha dərindən dərk etməyə imkan verən tarixi müqayisəli təhlil metodu qarşıya qoyulan məqsədə nail olmaq üçün əsas kimi götürülmüşdür.

Çar Rusiyasının Qafqaz, eləcə də Azərbaycanla bağlı işğalçılıq siyasətinin müəyyən edilməsi zamanı əldə edilən sənədlər, mövcud elmi ədəbiyyat araşdırılaraq müqayisəli təhlil edilmiş və elmi-məntiqi nəticələr çıxarılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim olunan dissertasiyanın başlıca müddəaları aşağıdakılardan ibarətdir:

1. Çarizmin Qafqazda həyata keçirdiyi tədbirlər, yerli xalqların ənənəvi ictimai-siyasi həyat tərzinin Rusiya məmur-bürokratik, polis

idarə sisteminə uyğunlaşdırmaq məqsədi tədqiq olunan dövrdə xalq azadlıq hərəkatının yüksəlməsinə səbəb oldu;

2. Qafqaz müridizminin banisi şirvanlı Şeyx İsmayıl Kürdəmirlinin əsasını qoyduğu təlim bəhs olunan dövrdə Qafqaz xalqlarının xalq-azadlıq hərəkatının ideoloji zəminini təşkil etmişdir;

3. XIX əsrin əvvəllərində Azərbaycanda və Dağıstanda çarizmin müstəmləkə siyasətinə qarşı mübarizənin təşkilatçılarından biri olan Şeyxəli xanın siyasi fəaliyyəti 1817-ci ildə başlamış Qafqaz müharibəsinin sələfi kimi çıxış etmişdir;

4. Şimali Qafqazda müridizm təliminin geniş şəkildə yayılmağa başladığı bir dövrdə Azərbaycanın şimal-qərb bölgəsi Cənubi Qafqazda çar Rusiyasının müstəmləkə siyasətinə qarşı mübarizənin mərkəzinə çevrilmişdi;

5. Qafqaz müridizminin rəhbərləri Həmzət bəy və Şeyx Şabanın müridizm hərəkatının ilk illərində baş vermiş 1830-1832-ci illər Car-Balakən üsyanlarında yaxından iştirakı Azərbaycanın bu bölgəsinin hərəkatın önəmli mərkəzlərindən birinə çevrilməsinə səbəb oldu;

6. Şimali Azərbaycnın Car-Balakən camaatlığı, Nuxa və Quba qəzaları, eləcə də Cənubi və Mərkəzi Dağıstanın azərbaycanlılar yaşayan məntəqələri ilə yanaşı Dərbənd bölgəsi də müridizm hərəkatının yayıldığı ərazilər idi;

7. İlisu sultanı Daniyal bəyin başçılığı altında baş vermiş 1844-cü il üsyanı Qafqaz xalqlarının azadlıq hərəkatı tarixində xüsusi yer tutmaqla bu, Şimali Qafqaz dağlılarının müqavimət hərəkatının gedişinə ciddi şəkildə təsir göstərmişdir;

8. Dağıstan və Çeçenistanın üçüncü imamı Şamilin 1853-1854-cü illərdə Azərbaycanın şimal-qərb bölgəsinə, Car-Balakən dairəsinə olmuş yürüşləri bölgə əhalisini çarizmə qarşı üsyana qaldırmaqla barəbər, həm də rusları bu strateji əhəmiyyətli bölgədən məhrum etmək məqsədi daşıyan geniş strateji planın tərkib hissəsi idi;

9. Azərbaycanın şimal qəzalarında baş verən üsyanlar zamanı dağlı mürid dəstələrinin yardıma gəlməsi, eləcə də azərbaycanlıların dağlıların müridizm hərəkatında iştirakı Qafqaz xalqlarının birliyini, silah yoldaşlığını, türk-islam vəhdətini ortaya qoydu;

10. Şimali Qafqaz dağlılarının azadlıq hərəkatının xələfi kimi çıxış etmiş, Azərbaycanın şimal qəzalarını əhatə etmiş 1863-cü il

Ümumqafqaz üsyanı Qafqaz xalqlarının çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizəsinin mühüm səhifələrindən birini təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi ilk növbədə azərbaycanlıların Şimali Qafqaz dağlılarının azadlıq hərəkatında iştirakı probleminin ilk dəfə kompleks şəkildə araşdırılması təşkil edir. Problemə dair tarixi ədəbiyyat və müxtəlif mənbə materiallarının verdiyi məlumatlar bizə bu problemi daha dərindən araşdırmağa imkan verməklə həmin materialların təhlili aşağıda sadalananları dissertasiyanın elmi yeniliyi hesab etməyə əsas verir.

- Şimali Qafqaz dağlılarının müqavimət hərəkatının rəhbərlərinin Şimali Azərbaycanda getmiş azadlıq hərəkatında iştirakına dair bir çoxu ilk dəfə dövriyyəyə daxil edilmiş arxiv sənədləri əsasında yeni faktlar gətirilmişdir;
- Azərbaycanın şimal qəzalarında müridizm şeyxlərinin fəaliyyəti yeni faktlar əsasında araşdırılmışdır;
- İlk dəfə olaraq XIX əsrin 20-60-cı illərində Azərbaycan və dağlı xalqlarının çarizmə qarşı birgə mübarizə tarixi nəzərdən keçirilmiş, müridizm hərəkatında azərbaycanlıların iştirakı faktları təhlil edilmişdir;
- Vətən tarixşünaslığında ilk dəfə olaraq müridim hərəkatı çərçivəsində 1849-cu il Nuxa üsyanı araşdırılmışdır;
- İlk dəfə olaraq azərbaycanlıların müridizm hərəkatında yeri və əhəmiyyətinə aydınlıq gətirilmişdir;
- Tarixşünaslıqda ilk dəfə olaraq İmam Şamilin rəhbərliyi altında müstəmləkə əleyhinə hərəkat çərçivəsində Şimali Azərbaycanda baş vermiş azadlıq hərəkatı araşdırılmışdır;
- İmam Şamilin Azərbaycanın şimal-qərb bölgəsindən olmuş naibləri ilisululu Daniyal sultan, balakənli Bakrak Əli və carlı Molla Şabanın fəaliyyəti ilə bağlı yeni faktlar gətirilmişdir;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Aparılmış tədqiqatın materialları Qafqaz və Azərbaycan tarixi ilə bağlı ümumiləşdirilmiş işlərin yazılmasında, ali və ümumtəhsil məktəblərində ictimai və humanitar fənlərin tədrisində istifadə oluna bilər.

Tədqiqat zamanı əldə edilən elmi nəticələrdən eyni zamanda ölkəmizin ali məktəblərinin tarix fakültələrində mühazirə və xüsusi kursların oxunması məqsədilə də istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları, başlıca nəticələri müəllifin bu problemlə bağlı nəşr etdirdiyi elmi məqalələrində, həmçinin respublikamızda keçirilən, eləcə də beynəlxalq elmi-praktik konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Ümumi tarix" kafedrasında yerinə yetirilmiş və müdafiəyə tövsiyə olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş (29890 işarə), birinci fəsil (45613 işarə), ikinci fəsil (82543 işarə), üçüncü fəsil (105540 işarə), nəticə (10449 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından (41603 işarə) ibarətdir. Dissertasiya işinin ümumi həcmi 317086 işarədir.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, problemin işlənilmə səviyyəsi və mənbəşünaslığı şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmş, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar və nəzəri-praktiki əhəmiyyəti göstərilmiş, elmi yeniliyi verilmişdir.

Dissertasiyanın **"Müridizmin meydana gəlməsi"** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir. **"Müridizmin meydana gəlməsinin tarixi və dini-ideoloji zəmini"** adlanan birinci yarımfəsildə XVIII əsrin sonlarından çar Rusiyasının Qafqaza münasibətdə işğalçılıq planlarını həyata keçirmək üçün ilk addımları araşdırılaraq bildirilmişdir ki, II Yekaterinanın fərmanı ilə Qafqaz canişinliyinin təşkil olunmuş və XIX əsrin əvvəllərindən Qafqazın Rusiya tərəfindən işğalının yeni mərhələsi başlanmışdır. Rus tarixçiləri çarizmin Qafqazdakı müstəmləkə siyasətinə haqq qazandırmağa cəhd göstərmişdir. Bununla yanaşı Azərbaycan və Dağıstanın bəzi feodal hakimlikləri arasında Rusiyanın vasitəçiliyi ilə Georgiyevskdə müttəfiqlik müqaviləsinin bağlanması, Rusiyanınn 1803-cü ildən etibarən faktiki olaraq hərbi yolla Şimali Azərbaycanın ərazisinin işğalına başlaması, Rusiya ilə Qarabağ və Şəki xanlığı arasında bağlanmış Kürəkçay müqaviləsi təhlil edilmişdir.

Həmçinin Rusiyanın Şimali Qafqazda ruhani şəxslərə münasibətdə siyasəti, Rusiya Daxili İşlər Nazirliyinin Xaricilərin Ruhani İşləri Departamenti, Rusiyanın təbəəliyinə keçmiş ərazilərdə müstəmləkə hakimiyyətinin özbaşınalıqları, Osmanlı Türkiyəsi, Qacar İranı və İngiltərənin Rusiyanın Qafqazda iqtisadi və siyasi təsir dairəsinin genişləndirməsi siyasətinə qarşı mübarizəsi, Rusiyanın Qafqaz siyasətində dini və ideoloji xarakterli motivlər, bölgələrdə çarizmin hərbi-strateji mövqelərini möhkəmləndirmək üçün Rusiyanın köçürmə, ruslaşdırma və zorakı xristianlaşdırma və Qafqazda iqtisadi siyasəti tədqiqata cəlb edilmişdir.

Qeyd edilmişdir ki, Şimali Qafqaz dağlılarının tabe edilməsi ilə bağlı Yermolovun 1820-ci ilə qədər həyata keçirməli olan planında aşağıdakılar nəzərdə tutulmuşdu:

1. Terekin sağ sahilində yerləşən torpaqların işğalı;

2. Terekin o tayındakı dağlıların torpaqlarında Mozdok və Qrebenski alaylarının kazaklarının məskunlaşdırılması;

3. Quba əyaləti və oradan da Gürcüstanla əlaqə saxlamaq üçün Sunja çayı boyunca Aksayevski, Andreyevski və Kostekovski kəndlərində rus qalalarının tikintisi;

4. Kabardinlərin və Qərbi Qafqazın digər döyüşkən xalqlarının tabe edilməsi.[41]

Bununla yanaşı 1818-1820-ci illərdə Dağıstan və Çeçenistandakı hərbi əməliyyatların nəticələri, Qafqaz komandanlığının həmin vaxt Cənubi Qafqazda da sərt, repressiv siyasəti, XIX əsrin 20-ci illərindən başlayaraq Qafqazda çar Rusiyasına qarşı müridizm bayrağı altında müqavimət hərəkatının yeni dalğası, Müridizmin meydana gəlməsinin səbəbləri barədə rus tədqiqatçıların münasibəti təhlil edilmişdir.

Dissertasiyanın ikinci yarımfəsli "**Qafqaz müridizminin banisi Şeyx İsmayıl Kürdəmirli**" adlanır. Bu yarımfəsildə Şeyx İsmayıl Kürdəmirlinin fəaliyyəti geniş şəkildə araşdırılmışdır.

Müridizmin meydana gəlməsində Rusiyanın Qafqaz hakimiyyətini günahlandıran çarizmin ideoloqlarından hesab olunan general-mayor R.A.Fadeyevin fikirləri xüsusilə maraq doğurur. O qeyd edir ki, əvvəllər ruhanilər indiki qədər təsir gücünə malik deyildilər. Dağlıq və dağətəyi ərazilərdə yaşayan xalqlar ya hökmdarlara, ya yuxarı təbəqəyə, ya da xalq məclisinə tabe idilər. 1820-ci illərdən etibarən ənənəvi hakimiyyətlərin dağıdılması və şəriətin hakim olması prosesi başladı. [42]

Nəticədə çarizmin müstəmləkəçilik siyasətinə qarşı Dağıstanda və Çeçenistanda XIX əsrin əvvəllərindən müqavimət hərəkatı baş qaldırdı.

---

[41] Всеподданнейший рапорт ген. Ермолова, от 14-го мая 1818 года // Акты, собранные Кавказской археографической комиссией [АКАК] / под. Ред. А.П.Берже. – Тифлис: Типография Главного Управления Наместника Кавказского, – т. VI, ч. 2-я. – 1875. – с. 447-448.

[42] Фадеев Р.А. Государственный порядок. Россия и Кавказ / Сост. Лебедев С. В., Линицкая Т. В. /Предисл. и коммент. Лебедева С. В. / Отв. ред. О. А. Платонов. — М.: Институт русской цивилизации, 2010. — 992 с.

Dissertasyanın **"Şimal-Şərqi Qafqazda rus istilasına qarşı mübarizənin başlanması"** adlanan ikinci fəsli iki yarımfəsldən ibarətdir. Birinci yarımfəsil **"1810-cu illərin sonu – 1820-ci illərdə Dağıstan və Çeçenistanda rus işğalına qarşı üsyanlar"** adlanır. Bu yarımfəsildə Rusiyanın Qafqazda hərbi-siyasi işağal siyasətində Qacar İranı, İngiltərə və Osmanlı dövlətlərinə münasibətdə siyasəti, Qafqazda "Dövlət" torpaq fondunun formalaşma mənbələri, kəndlilərin icma torpaqlarının zəbt edilməsi və çar hökumətinə "xəyanət" edən xanların və bəylərin mülklərinin qismən müsadirə edilməsi, üsyankar kəndlərdə sakinlərin kütləvi şəkildə qətlə yetirilməsi, aulların dağıdılması, əkinlərin yandırılması, mal-qaranın əllərindən alınması, ticarətin qadağan edilməsi, bəzi dini ayinlərin məhdudlaşdırılması, etnik cəhətdən rəngarəng olan bu bölgədə müxtəlif xalqlar arasında etnik ədavətin qızışdırılması, Azərbaycan və Dağıstan xalqlarının Rusiya işğalına qarşı apardıqları birgə mübarizə, Qafqazda gedən döyüşlərdə rusların itkiləri barədə məlumatlardan bəhs edilmişdir.

Yermolov qeyd edirdi ki, çeçenləri tabe etmək üçün indiyə kimi istifadə olunmuş vasitələrdən deyil, tamam başqa üsullardan istifadə etmək lazımdır. Əvvəllər bizim ordularımız onlar üçün naməlum olan, yerləşdiyi coğrafi mövqeyinə görə alınmaz, qadın, uşaq və əmlaklarını qorumaq üçün hamının birləşdiyi torpaqlara gedirdilər. Onları silah gücünə tabe etmək əvəzinə Sunja çayını tutaraq onun axarı boyunca qalalar tikmək lazımdır. Onda öz dağlarına sıxışdırılmış çeçenlər əlverişli əkin sahələri və mal-qarasını qış aylarında dağların sərt iqlimindən qorumaq üçün otlaqlardan məhrum olacaqlar.[43]

Yermolov Çeçenistanın dərinliklərinə doğru irəliləmək taktikasına uyğun olaraq onların kəndlərini yandırır, əhalini meşələrə qaçmağa məcbur edir, mal-qarasını ələ keçirir, əkin sahələrini məhv edirdi. Şalini ələ keçirən ruslar dağlıların evlərini ələ keçirməklə bərabər meyvə bağlarını da məhv etmişdi. Rus hissələrinin məqsədi

---

[43] Высочайшее повеление ген. Ермолову, от 19-го апреля 1819 года // АКАК / под. Ред. А.П.Берже. – Тифлис: Типография Главного Управления Наместника Кавказского, – т. VI, ч. 1-я. – 1874. – с. 487-489.

Çeçenistanın təsərrüfat həyatını tamamilə məhv etmək, bununla da onları aclıq çəkməyə vadar etməklə iradəsini qırmaq idi.[44]

Tədqiqatçıların bəziləri şərti olaraq Qafqaz müharibəsini dörd mərhələyə bölürlər. Onun birinci dövrü 1818-1829-cu illəri əhatə edir ki, bu zaman feodalların qismində anti-Rusiya müxalifəti meydana gəlmiş, lokal xarakterli çıxışlar baş vermiş, müridizm hərəkatı formalaşmışdır. 1830-1834-cü illəri əhatə etmiş ikinci dövr ilk imamların fəaliyyəti dövrüdür. 1834-1859-cu illəri əhatə etmiş üçüncü dövr Şamil imamətinin meydana gəlməsi və tənəzzülü dövrüdür. Nəhayət sonuncu, 1859-1864-cü illəri əhatə etmiş dördüncü mərhələ Qafqaz müharibəsinin yekunlaşdığı dövrdür.[45]

**“Şimali Qafqaz xalqlarının azadlıq hərəkatının xüsusiyyətləri və Azərbaycan (1829-1834-cü illər)”** adlanan ikinci yarımfəsildə Rusiya tərəfindən Şimali Qafqazın iqtisadi cəhətdən blokadaya almasının bu diyarın daxili həyatına təsiri, müridizmin meydana çıxması, Şimali Qafqazda çarizmə qarşı qazavata ilk çağrış, Kürdəmirli İsmayıl Əfəndi, Hacı Şəfi bəy və Molla Yaraqlının fəaliyyəti, Dağlıq Dağıstana keçən müridizmin burada genişlənməsi, Dağıstan və Çeçenistanın birinci imamı Qazı Məhəmmədin fəaliyyəti, Azərbaycanın şimal-qərb bölgəsində baş vermiş üsyan və yerli üsyançıların Dağıstan üsyançılarına müraciət etməsinin müridizm hərəkatının Cənubi Qafqaza da yayılmasına təsiri, Dağıstan və Çeçenistanın ikinci imamı Həmzət bəyin fəaliyyəti, Qafqaz dağlılarının azadlıq hərəkatının ilk iki imamı Qazı Məhəmməd və Həmzət bəyin Azərbaycanla əlaqələri araşdırılmışdır.

R.A.Fadeyev yazır ki, Qazı Məhəmməd nə dərin ilahiyyatçı, nə də hiyləgər siyasətçi deyildi. Onun ən yüksək keyfiyyəti, kütləni ovsunlayan bir şəxsiyyət olmasında idi. O, xalq qarşısında çıxış edəndə və ya döyüş zamanı orduya müraciət edəndə camaat ona bir nəfər kimi tabe olur, yalnız onun iradəsi ilə yaşayırdı. Qazı

---

[44]Ахмадов Я.З., Хасмагомадов Э.Х. История Чечни в XIX-XX веках. Москва, Пульс, 2005. 996 стр.

[45]Джахиев Г.А. О хронологии и периодизации Кавказских войн (к постановке вопроса). С. 5-8. Вестник Дагестанского Государственного Университета. Гуманитарные науки. 2004, вып. 3.

Məhəmmədin bu keyfiyyəti barədə müasirləri olan dağlılar qeyd edirdilər ki, “Adamın ürəyi dodaqlarına yapışdı: bir nəfəslə ruhunda tufan oyandı”.[46]

Yaxın və Orta Şərq ölkələrində uzun əsrlər boyu mövcud olan təriqətdən fərqli olaraq, Qafqaz müridizmi təkcə islam ehkamlarına dərindən iman etmək tələbi və şəriət qaydalarına riayət etməklə kifayətlənməmiş, həm də tərəfdarlarının üzərinə silahlı mübarizə vəzifəsini qoymuşdur. Məhz buna görə də Qafqazda müridlər təriqət və naiblərin müridlərinə bölünürdülər.[47]

Dissertasiyanın “**1834-1864-cü illərdə Qafqaz xalqlarının azadlıq mübarizəsi”** adlanan üçüncü fəsli iki yarımfəsildən ibarətdir. Üçüncü fəslin **“XIX əsrin 30-60-cı illərində Şimal-şərqi Qafqazda xalq-azadlıq hərəkatının yüksəlişi”** adlanan birinci yarımfəsilində Dağıstan və Çeçenistanın ikinci imamı Həmzət bəyin öldürülməsi ilə yeni imam seçilmiş Şamilin fəaliyyətə başlamasının ilk illəri, rus komandanlığı ilə Şamilin arasında 1835-ci ilin əvvəllərində əldə olunmuş razılaşma, muridizmin daha da geniş yayılmasının qarşısını almaq məqsədilə rus qoşunlarının Çeçenistan və Dağlıq Dağıstana hücuma keçməsi, tərəflər arasında şiddətli döyüşlərin baş verməsi, Axulqo döyüşləri, Şamilin 1843-1847-ci illər Dağlıq Dağıstan və Çeçenistanın demək olar ki, bütün dağlılarını öz bayrağı altında birləşdirməsi təhlil edilmişdir. Bununla yanaşı, Krım müharibəsindən sonra Rusiyayanın qüvvələrini Şamilə qarşı cəmləşdirməsi, Şamilin Dağlıq Dağıstana çəkilməsi və mühasirəyə düşərək təslim olması, Şimali Qafqazın tamamilə işğal edilməsi tədqiqata cəlb edilmişdir.

Qeyd edilmişdir ki, Axulqonun 1839-cu ilin iyunun 24-dən sentyabrın 11-ə kimi davam etmiş 80 günlük müdafiəsi bütövlükdə Qafqaz müharibəsi tarixində xüsusi yer tutur. Bu zaman rusların general Qrabbenin başçılığı altındakı 10 min nəfərdən yuxarı qüvvələrə qarşı Axulqonun yerli sakinləri və ruslardan qat-qat

[46] Фадеев Р.А. Государственный порядок. Россия и Кавказ / Сост. Лебедев С. В., Линицкая Т. В. /Предисл. и коммент. Лебедева С. В. / Отв. ред. О. А. Платонов. — М.: Институт русской цивилизации, 2010. — 992 с.

[47] История Дагестана. В 4-х т. Том II. М.: Наука, 1968, 368 с.

azsaylı müdafiəçiləri üç aya yaxın bir müddətdə rusların aramsız artilleriya atəşləri altında müdafiə olunmuşdular.

Bu müddətdə ruslar dəfələrlə Axulqonu ələ keçirməyə cəhd etsələr də hər dəfə müridlər tərəfindən böyük itkilərlə geri oturdulmuşdular. Döyüşlərdə hətta qadınlar da iştirak edirdi. Vaxt keçdikcə Axulqo müdəfiəçilərinin vəziyyəti ağırlaşır, ərzaq və sursat tükənir, kənddə çiçək epidemiyası başlayır. Belə bir vəziyyətdə 1839-cu il avqustun 17-də şiddətli döyüşlərdən sonra çar qoşunları istehkamların bir hissəsini artilleriya atəşi ilə darmadağın etdikdən sonra ələ keçirə bilirlər.[48]

**"Müridizmin Şimali Azərbaycanda üsyançı hərəkata təsiri"** adlanan ikinci yarımfəsildə Şamilin Dağlıq Dağıstanda, Çeçenistanda və Azərbaycanda nüfuzunun artması, Quba üsyanı, Quba üsyanının dağlıların müridizm hərəkatı ilə əlaqəsi, Şəki üsyanı, Xaçmaz dərəsi vasitəsilə Şəki əyalətinə daxil olan dağlı dəstəsinin yerli əhaliyə köməyi, Şəki əyalətində müridizm təriqətçilərinin əhali arasında təbliğatla məşğul olması, Krım müharibəsi zamanı Şimali Azərbaycan ərazisində müridizm təbliğatçılarının fəallaşması və Ümumqafqaz üsyanının yatırılmasından sonra Azərbaycanda müridizm hərəkatının ayrı-ayrı müridizm şeyxlərinin başçılığı altında davam etməsi araşdırılmışdır.

Qeyd edilmişdir ki, Qubada əhali arasında ciddi həyəcanların yaşandığı bir vaxtda imam Şamil müridi Əmirəli və Tərğal sakini Rzaxan vasitəsilə Xuluq kəndxudası Hacı Məmmədə və başqa kəndxudalara məktub göndərir. Həyəcanların təşkilatçılarını qınayaraq onları düşmənə qarşı silaha sarılmağa çağıran məktubunda Şamil yazırdı: "Silahlanın, inancımızın və adət-ənənəmizin düşməninə qarşı qalxın ki, bunun sizə faydasını göstərirəm. Ruslar məndən heç nə tələb edə bilmirlər, çünki gecə-gündüz onlarla vuruşaraq əmin oldum ki, bizim gücümüz çoxdur: boş vədlərə və kağızlara (məktublara) inanmayın - susmaq sizə daha zərərlidir."[49]

---

[48] Гаммер М. Шамиль. Мусульманское сопротивление царизму. Завоевание Чечни и Дагестана (перевод с английского В.Симакова). М.: КРОН-ПРЕСС, 1998. 512 с.

[49] Сумбатзаде А.С. Кубинское восстание 1837 года. Б., Издательство Академии наук Азербайджанской ССР, 1961, 121 с.

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqat zamanı əldə edilmiş mühüm nəticələr verilmiş və ümumiləşdirmələr aparılmışdır. XIX əsrin əvvəllərindən etibarən çarizmin Şimali Qafqaza münasibətdə həyata keçirdiyi hərbi-siyasi, iqtisadi və ideoloji müdaxiləsi özlərinin azadlığı, əmlakları üçün təhlükə hesab edən dağlıların müqaviməti ilə qarşılaşır. Nəticədə çarizmin müstəmləkəçilik siyasətinə qarşı Dağıstanda və Çeçenistanda XIX əsrin əvvəllərindən müqavimət hərəkatı baş qaldırır ki, bu hərəkat 1817-ci ildə başlamış Qafqaz müharibəsinin sələfi olmaqla, öz taktiki və operativ metodlarına görə həmin müharibənin gedişlərini qabaqlamışdı. Dissertasiyada çar hökumətinin Qafqazı ram etmək məqsədi daşıyan hərbi-strateji planları aşkara çıxarılmış və onun həyata keçirilməsinin gedişatı göstərilmişdir.

1. Dissertasiyada çar Rusiyasının Qafqazdakı siyasətinin müstəmləkəçilik mahiyyəti açıqlanmışdır. Belə qənaətə gəlinmişdir ki, 1816-cı ildə Qafqazdakı rus ordularının baş komandanı təyin olunmuş general A.Yermolovun yerli əhaliyə qarşı görünməmiş vəhşiliklərlə müşayiət olunan, çoxsaylı qurbanlarla nəticələnən sərt cəza tədbirləri, ayrı-ayrı kəndlərin tamamilə silinməsi ilə nəticələnən hərbi ekspedisiyaları bir çox xalqları bu siyasətə qarşı birləşməyə vadar edir ki, bu, Qafqaz müridizminin bayrağı altında Dağlıq Dağıstan və Çeçenistanda müqavimət hərəkatına səbəb olur.

2. Həmin vaxtı Şimali Azərbaycanda baş verən siyasi proseslər, çarizmin yerli feodal hakimliklərini ləğv etməsi, ayrı-ayrı hakimlərin hakimiyyətdən kənarlaşdırması, digərlərinin isə hüquqlarına müdaxilə etməsi XIX əsrin əvvəllərində Azərbaycanda da çarizmin müstəmləkə siyasətinə qarşı mübarizənin alovlanmasına səbəb olur. Tədqiqat zamanı əldə olunmuş qənaətlərdən biri ondan ibarətdir ki, məhz keçmiş Quba xanı Şeyxəli xanın siyasi fəaliyyəti 1817-ci ildə başlamış Qafqaz müharibəsinin sələfi kimi çıxış etmişdir.

3. Çarizmin Qafqazda həyata keçirdiyi tədbirlər, yerli xalqların ənənəvi ictimai-siyasi həyat tərzinin Rusiya məmur-bürokratik, polis idarə sisteminə uyğunlaşdırmaq məqsədi, eləcə də dini siyasəti tədqiq olunan dövrdə əhalinin geniş təbəqələrinin mənafeyinə toxunmaqla onların ciddi narazılığına, belə vəziyyət

çarizmə qarşı mübarizənin sosial bazasının genişlənməsinə səbəb olur. Məhz belə şəraitdə yüksələn xalq azadlıq hərəkatının dini-ideoloji əsasını təşkil edən müridizm təlimi meydana gəlir. Tədqiqat zamanı gəldiyimiz qənaətlərdən biri də ondan ibarətdir ki, Qafqaz müridizminin banisi şirvanlı Şeyx İsmayıl Kürdəmirlinin əsasını qoyduğu təlim bəhs olunan dövrdə Qafqaz xalqlarının azadlıq hərəkatının ideoloji zəminini təşkil etmişdir. Bu isə müridizmin vətəninin Şimali Azərbaycan olduğu qənaətinə gəlməyə imkan verir. Şeyx İsmayıl Kürdəmirlinin Qafqazın müxtəlif yerlərindən, ilk növbədə isə Dağıstandan olmuş müridləri tərəfindən aparılmış təbliğat nəticəsində müridizm Şimali Qafqaza da yayılmışdır.

4. Tədqiqat zamanı Şimal-Şərqi Qafqazdakı xalq-azadlıq hərəkatı tarixində ayrı-ayrı şəxslərin rolu göstərilməklə belə qənaətə gəlinmişdir ki, Şimali Qafqaz dağlılarının azadlıq hərəkatının rəhbərləri – birinci imam Qazı Məhəmməd, ikinci imam Həmzət bəy, üçüncü imam Şamilin siyasi fəaliyyətləri müridizm təliminin xalq-azadlıq hərəkatının ideologiyasına çevrilməsinə səbəb olmuşdur.

5. Dissertasiyada Şimali Qafqazda müridizmin bayrağı altında getmiş azadlıq hərəkatının Azərbaycana təsiri problemi təhlil edilmiş, bu hərəkatda Azərbaycanın rolu müəyyənləşdirilmişdir. Aparılmış tədqiqat, qaynaqların verdiyi məlumatların təhlili belə qənaətə gəlməyə əsas verir ki, bəhs olunan dövrdə Şimali Azərbaycnın Car-Balakən camaatlığı, Nuxa və Quba qəzaları, eləcə də Cənubi və Mərkəzi Dağıstanın azərbaycanlılar yaşayan məntəqələri və Dərbənd bölgəsi də müridizm hərəkatının yayıldığı ərazilər idi.

6. Bu üsyanların yatırılmasından sonra onun iştirakçılarının bir hissəsi çarizmin sərt cəza tədbirlərindən yaxa qurtarmaq məqsədilə dağlara çəkilərək sonradan müridizm hərəkatının fəal iştirakçılarına çevrilmişdilər. Bunun bariz nümunəsi kimi 1830-1832-ci illər Car-Balakən, 1837-ci il Quba və 1838-ci il Nuxa üsyanlarında dağlı mürid dəstələrinin yaxından iştirakını, üsyanların məğlubiyyətindən sonra onun iştirakçılarının bir hissəsinin mürid dəstələrinin tərkibində dağlara çəkilməsini göstərmək olar. Bu baxımdan eyni zamanda dissertasiyada Şimali Azərbaycanda getmiş xalq-azadlıq hərəkatında nəqşibəndi təriqətinin rolu da işıqlandırılmışdır.

7. Aparılmış tədqiqat nəticəsində Azərbaycanın şimal qəzalarını əhatə etmiş 1863-cü il Ümumqafqaz üsyanının dini xarakteri, onun müridizm təlimi ilə bağlılığı üzə çıxarılmışdır. Bu üsyanla bağlı ilkin qaynaqların təhlili nəticəsində əldə olunmuş nəticələrdən biri də ondan ibarətdir ki, Şimali Qafqaz dağlılarının azadlıq hərəkatının xələfi kimi çıxış etmiş, Azərbaycanın şimal qəzalarını əhatə etmiş 1863-cü il Ümumqafqaz üsyanı Qafqaz xalqlarının çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizəsinin mühüm səhifələrindən birini təşkil etmişdir.

Yekunda qeyd etmək lazımdır ki, bu araşdırmalar nəticəsində əldə edilən məntiqi nəticələr, onların təhlili çar Rusiyasının Qafqaza münasibətdəki işğalçılıq siyasəti və müridizmin bayrağı altında getmiş inadlı müqavimət hərəkatı məsələlərinə ətraflı işıq salmağa, Qafqazda getmiş anti-müstəmləkə hərəkatlarının səbəblərini və xüsusiyyətlərini müəyyən etməyə imkan vermişdir.



**Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Çar Rusiyası tərəfindən Şimali Qafqazın işğalı // - Bakı: Tarix və onun problemləri. Nəzəri, Elmi, Metodik jurnal. - 2022. №13458 - s. 86-92.
2. Çeçenistanda Rusiya işğalına qarşı üsyanlar (1807-1828-ci illər) // AMEA Gəncə Bölməsi. Xəbərlər Məcmuəsi Jurnalı. "İctimai və humanitar elmlər" seriyası. - Gəncə: - 2022. №2.(2) - s. 80-85.
3. Müridizmin yayılmasında Şeyx İsmayil Kürdəmirlinin rolu // Sumqayıt: SDU. Elmi xəbərlər jurnal. Sosial və Humanitar elmlər bölməsi. - 2022. №2,. s. 53-58.
4. People's Liberation Movement in the North Caucasus in the 30-40s of the XIX Century // Бюллетень науки и практики. Научный журнал. Нижневартовск, Россия. - 2022. №7. s. 532-540.
5. Müridizm hərəkatının birinci mərhələsində Azərbaycanın şimal-qərb bölgəsində Rusiya işğallarına qarşı mübarizə (1829-1834-cü illər) // - Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti. Tarix, insan və cəmiyyət. Elmi-nəzəri və elmi-metodik jurnal. - 2022. №2.(35) s. 101-111.
6. Dağıstanda rus işğalına qarşı üsyanlar (1818-1820-ci illər) // - Naxçıvan: Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər. İctimai elmlər seriyası. - 2022. №2 (115). s. 18-24.
7. Rusiya müstəmləkəçiliyinə qarşı Quba və Şəki üsyanları (XIX əsrin 30-cu illərinin sonları) // - Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. - 2022. s. 94-104.
8. Çarizmin Qafqaz siyasəti və Qarabağ xanlığının işğalı // - Sumqayıt:. Sumqayıt Dövlət Universiteti. "Qarabağın Tarixi: Siyasi, İqtisadi, Mədəni aspektlər" Beynəlxalq elmi konfransın materialları. - 2022. №1. 1631 i.s. - s. 146-148
9. Muridizm hareketinin ilk aşamasında Kuzeydoğu Kafkasya'da ulusal kurtuluş hareketi (1829-1834). // 6th International Conference on History & Culture. Proceedings Book. - Antalya, 2022. №6. 4336 i.s. - s. 145-151.
10. Şimali Qafqazda azadlıq hərəkatı. (XIX əsrin 50-ci illəri) // . - Bakı: BMU və DGKA. Gənc Tədqiqatçıların VI Beynəlxalq Elmi Konfransın materialları - 2022. №1.. - s. 1068-1071.

Dissertasiyanın müdafiəsi 30 may 2025-ci il tarixində saat 12⁰⁰ Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1148, Bakı şəh., Yasamal r/nu, Zahid Xəlilov küç., 33.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.04.2025
Kağızın formatı: 60x84 $^{1}/_{16}$
Həcm: 43043
Tiraj: 100